# MÜƏLLİM KADRLARIN PEŞƏ HAZIRLIĞINDA GENDER KOMPETENSİYALARININ FORMALAŞDIRILMASININ NƏZƏRİ-TƏCRÜBİ ƏSASLARI



**Elza Mollayeva,**
*Bakı Dövlət Universitetinin Pedaqogika kafedrasının professoru, pedaqoji elmlər doktoru, Qabaqcıl təhsil işçisi*
*e-mail: elzamollayeva@rambler.ru*
*https://doi.org/10.30546/2706-7858.2026.2.3012*

**UOT:** 37
**Xülasə**. *Məqalədə müəllimin pedaqoji qabiliyyətləri sırasında yer alması zəruri olan gender kompetensiyası, onun istiqamətləri və bu amilin təhsilalanların sosiallaşmasında və təlim fəaliyyətlərinin yüksəldilməsində əhəmiyyətli rolu geniş izah edilmişdir. Həmçinin "kompetensiya" anlayışının mahiyyəti, dünya təhsil məkanında pedaqoji kadrların hazırlanmasında köhnə və yeni yanaşmalar arasındakı ziddiyyətlər, çatışmazlıqlar, tədris prosesində gender amilinin nəzərə alınmasının pedaqoji-psixoloji təsiri təhlil edilmişdir. Məqalədə qeyd edilir ki, müəllimlərdə gender kompetensiyalarını formalaşdırmaq üçün onların gender anlayışının elmi-pedaqoji əhəmiyyətini dərindən mənimsəmələri vacibdir və bunun üçün onlar həm ünsiyyətdə, həm də fənninin tədrisində gender yanaşmalarını məqsədəuyğun şəkildə tətbiq etməyi, hər iki cinsdən olan təhsilalanlara bərabər imkanlar yaratmağı bacarmalı və dərs prosesində cinslərdən hər hansı birinin diskriminasiyasına yol verilməməsinə çalışmalıdır. Bu məqsədlə də gənc müəllimlərin hazırlanmasında gender kompetensiyasının bu komponentləri onlara aşılanmalıdır. Onlar gender nəzəriyyəsinin pedaqoji-psixoloji mahiyyətini, genderin əsas qayəsini təşkil edən ədalət və tolerantlığı, dərsin gedişində gender balansını saxlamağı, neytral ünsiyyətdən istifadə etməyi, gender stereotiplərindən uzaq olmağı, öz şəxsi gender identikliyini daha dərindən dərk etməyi bacarmalıdırlar.*

***Açar sözlər:*** *gender bərabərliyi, müəllimin pedaqoji qabiliyyətləri, gender kompetensiyası, gender identikliyi, gender nəzəriyyəsi.*
***Keywords:*** *gender equality, teacher's pedagogical abilities, gender competence, gender identity, gender theory.*
***Ключевые слова:*** *гендерное равенство, педагогические способности учителя, гендерная компетентность, гендерная идентичность, гендерная теория.*

Müasir dövrdə pedaqoji kadr hazırlığında pedaqoji kompetensiyaların formalaşdırılması diqqət mərkəzində saxlanılan vacib məsələlərdən biridir. Bu prosesdə dünya təhsil məkanında pedaqoji kadr hazırlığı sahəsində köhnə və yeni yanaşmalar arasındakı mövcud ziddiyyətlər, yeni təhsil texnologiyaları, innovativ

yanaşmalarla müəllimlərin bu istiqamətdə hazırlığındakı çatışmazlıqlar, onların təhsil istiqamətində modernləşməyə ləng inteqrasiyası aktuallığı ifadə edir. Müəllimin kompetentliyi ilə bağlı B.A.Bolotov [2, 3], N.Y.Klimenko [8], İ.V.Voronin [4] və başqaları tədqiqatlar aparmış və onlar müəllim üçün baza rolunu oynayan kompetensiyalarda hansı kriteriyaların əsas götürülməsini qeyd etmişlər.

"Kompetensiya" termini latınca "competentia" – hüquqi cəhətdən məxsusluq, hər hansı bir sahədə məlumatlılıq və hər hansı bir şəxsin öhdəliyini əks etdirən dairə mənasını verir. Müxtəlif elm sahələri "kompetensiya" sözünə öz aspektindən izah vermişlər. Hüquq elmləri müstəvisində kompetensiya qanunvericiliklə müəyyən edilmiş fəaliyyət sferası, bir sıra məsələlərin dairəsi, səlahiyyət həcmi və vəzifəli şəxsin, yaxud dövlət orqanının fəaliyyət həddidir [1]. Lakin məqalə pedaqoji elmlərlə bağlı olduğundan "kompetensiya" sözünün mənasını pedaqoji aspektdə izah etmək yerinə düşərdi. Qeyd etmək lazımdır ki, bu sahədə alimlər arasında fikir birliyi yoxdur və hətta onların bəziləri bu terminin mahiyyətini düzgün izah edə bilmirlər. Məsələn, A.M.Novikov [10] pedaqoji terminlər lüğətində "kompetensiya" sözünün mənasını düzgün izah edə bilməmiş, onun fikrinə görə, "kompetensiya" dominant "bacarıq" kimi qəbul edilməlidir. Lakin mahiyyətcə "bacarıq" "kompetensiya" anlayışı ilə tam üst-üstə düşmür və ənənəvi təlim texnologiyası ilə şərtlənən "bacarıq" termini, "kompetensiya" termini ilə eyni ola bilməz. Çünki "kompetensiya" əhatə dairəsinə görə "bacarıqlar" terminindən daha geniş və qlobaldır.

Bu sahənin tədqiqatçılarından biri olan Q.V.Matuşevskaya qeyd edir ki, "kompetensiya fərdin mürəkkəb fəaliyyətini həyata keçirən potensial hərəkətlərinin (emosional, idraki və psixomotor) məcmusudur. Ona görə də bilik və bacarıqlardan başqa, müəllim müəyyən şəxsi keyfiyyətlərə də malik olmalıdır. Müəllimin effektiv fəaliyyətini müəyyən edən şəxsi keyfiyyət, ilk növbədə, müxtəlif faktorlarla – pedaqoqun təbiət tərəfindən verilmiş imkanları: onun cinsi, yaşı, ali sinir fəaliyyətinin tipi, xarici görünüşü və s. psixi faktorlarla: idraki qabiliyyətinin səviyyəsi, yaddaşı, aktivliyi və s. fərdi həyat və peşə təcrübəsi ilə, ümumi pedaqoji qabiliyyəti, şəxsi-sosial keyfiyyətləri, ehtiyacları, əxlaqi keyfiyyətləri və s. ilə müəyyən edilir" [9, s.81].

"Kompetensiya" məfhumu N.N.Kalatskayanın verdiyi tərifdə daha dəqiq ifadə edilir: "Kompetensiyalar parametrlərin vəziyyətinin qarşıya qoyulmuş tapşırığa elə adekvat olmasıdır ki, pedaqoji kompetensiyaları müəyyən tip tapşırıqlara uyğun olan və fəaliyyətin nailiyyəti sayıla biləcək bilik, pedaqoji bacarıqlar və professional qabiliyyətlərin sintezi kimi müəyyən etmək mümkün olsun" [7, s.176].

Müəllimin fəaliyyət prosesində formalaşan və təhsilin keyfiyyətinin qiymətləndirilməsində əsaslı rola malik olan peşə kompetensiyası müəllim hazırlığının müasir tələblərini mədəniyyətlərarası dialoq baxımından da səciyyələndirir: "o perspektivli xarakter daşıyır, buna görə də geniş məsələləri – müasir mədəniyyət, mədəni plüralizm, konfliklərin qeyri-güc yolu ilə həllinin tapılması, etnokultur qruplarda davranış, müxtəlif etnik qrupların etnik xarakteristikası və dil fərqləri" və s. əhatə edir [7, s.300]. Yuxarıda verilmiş fikir O.V.Qukalenkonun müəllimin peşə hazırlığına aşağıdakı tələbləri ilə üst-üstə düşür:

*– "bir neçə dil bilmək, çünki bu, müxtəlif mədəniyyətlər içərisində fəallığın təminatçısıdır;*

*– biliklər əldə etməklə bərabər, təhsilin nəzəriyyəsini öyrənmək;*

*– tələbələrin sosial-psixoloji özəlliklərini dərk etmək;*

*– informasiya-kommunikasiya texnologiyalarından bacarıqla istifadə etməyin öhdəsindən gəlmək;*

*– ümumi təhsilin məzmununa yeniliklər gətirməyi bacarmaq;*

*– pedaqoji prosesi elə təşkil etməyi bacarmalıdır ki, fərqli mədəniyyət daşıyıcılarının dialoqu burada öz əksini tapmış olsun" [5, s.114].*

Müəllimin çoxfunksiyalı pedaqoji fəaliyyətində, onun peşə kompetensiyalarının formalaşdırılmasında ümumi kompetensiyalar böyük rola malikdir. Onlardan müəllimin elmi dünyagörüşü şəxsiyyətinin dəyərini göstərən kriteriya kimi çıxış edir. Ümumi kompetensiyaların məcmusuna fənn və metodik kompetensiyaları, hüquqi-normativ kompetensiyaları, psixoloji-pedaqoji və refleksiv kompetensiyaları daxil etmək olar.

Müəllimin peşə kompetensiyası ilə bağlı tədqiqatlar aparan D.A.İvanov xüsusi kompetensiyaları belə təsnif etmişdir: "Ümumtəhsil məktəbində

müəllimin peşə kompetensiyası ümumi və xüsusi fənn üzrə kompetensiyaları özündə birləşdirir. Xüsusi kompetensiyaların hamısı ümumilərdən hasil olur və onun tərkib hissəsidir. Xüsusi kompetensiyaların içərisindəkiləri bir neçə qrupa bölmək olar: sosial-şəxsiyyət xarakterli kompetensiyalar (vətəndaşlıq, özünütəkmilləşdirmə, sosial qarşılıqlı təsir, ümumi mədəni və s.); təşkilati-idarəetmə koompetensiyaları (fəaliyyətin nəticələrini qiymətləndirməyi bacarmaq, məqsədə nail olmaq üçün işi təşkil etmək bacarığı, innovativ ideyalardan istifadə etmək bacarığı, ölçülübiçili risk etməyə və onun nəticələrindən ötrü məsuliyyət daşımağa hazır olmaq bacarığı); ümumi elmi kompetensiyalar (idraki fəaliyyət, bilikləri strukturlaşdırmaq və genişləndirmək bacarığı, peşə inkişafı üzrə kompetensiyalar)" [6, s.98].

Bu təsnifatda müəllimin sosial-şəxsiyyət xarakterli kompetensiyalarına daxil olan gender kompetensiyaları, təəssüf ki, Azərbaycan pedaqoji elmində demək olar ki, tədqiq edilməmişdir. Gender mədəniyyəti həm dövlətin təhsil sistemində əks olunur, həm də cəmiyyətin gender stereotiplərinin formalaşmasında əsaslı rol oynayır. Müəllimlərdə gender kompetensiyalarını formalaşdırmaq üçün onların gender anlayışının elmi-pedaqoji əhəmiyyətini dərindən mənimsəmələri vacibdir və onlar bilməlidirlər ki, pedaqoji prosesdə müəllim yalnız bilik ötürən olmamalıdır, o, eyni zamanda gənc nəsildə sosial dəyərlərin formalaşdırılmasının da qeydinə qalmalıdır. Bu amil gələcəkdə pedaqoji kadrların hazırlanmasında nəzərə alınmalıdır. Tədqiqatçılardan İ.A.Zaqaynov və M.L.Blinovaya görə, "müəllimin peşəkar pedaqoji səriştəsinin formalaşmasında gender aspekti fərdin cinsi-rol sosiallaşması ilə bağlı problemlərin həllini nəzərdə tutur və onun sosial inkişafını müəyyən edir" [11, s.103]. Bunun üçün o, həm ünsiyyətdə, həm də fənninin tədrisində gender yanaşmalarını məqsədəuyğun şəkildə tətbiq etməyi, hər iki cinsdən olan təhsilalanlara bərabər imkanlar yaratmağı bacarmalı və dərs prosesində cinslərdən hər hansı birinin diskriminasiyasına yol verilməməsinə çalışmalıdır. Bu məqsədlə də gənc müəllimlərin hazırlanmasında gender kompetensiyasının bu komponentləri onlara aşılanmalıdır: onlar gender nəzəriyyəsinin pedaqoji-psixoloji mahiyyətini, genderin əsas qayəsini təşkil edən ədalət və tolerantlığı, dərsin gedişində gender balansını saxlamağı, neytral ünsiyyətdən istifadə etməyi, gender stereotiplərindən uzaq olmağı, öz şəxsi gender identikliyini daha dərindən dərk etməyi bacarmalıdırlar. Bu sahədə yol verilən səhvi belə ifadə etmək olar: cinslərarası sosial bərabərliyə patriarxal yanaşmalar norma olduğundan gələcək müəllimlər gender pedaqogikasını gələcək peşə təcrübəsinə daxil etmək üçün lazım olan bacarıqları kifayət qədər inkişaf etdirmədən universitet hazırlığını başa vururlar.

Gender nəzəriyyəsinə yaxından bələd olmuş müəllim pedaqoji təcrübədə aşağıdakı amilləri diqqət mərkəzində saxlamalıdır:

*– dərsin gedişində gender aspekti;*

*– qrup daxilində həm qız, həm də oğlan təhsilalanlar üçün bərabər iştiraka hesablanmış üsullardan istifadə;*

*– təhsilalanların qiymətləndirilməsində obyektiv olmaq və şəffaflığı qoruyub saxlamaq;*

*– gender dəyərlərini təhsilalanlara aşılaya biləcək mövzuların seçilməsi və ya mövzunun tədrisində gender imkanlarından istifadə.*

Pedaqoji kadr hazırlığında gender kompetensiyasının **beş** istiqaməti nəzərdə tutulur:

*1. Genderə aid biliklər və genderin hüquqinormativ bazası; (Azərbaycanda bu baza 2006-cı il 10 oktyabr tarixində Prezident İlham Əliyev tərəfindən 21 maddədən ibarət "Gender (kişi və qadınların) bərabərliyinin təminatı haqqında Qanunu" ilə təsdiq edilmişdir);*

*2. Tolerantlıq, eqalitarizm və ədalət prinsipinə əsaslanan dəyərlər;*

*3. Dərs prosesində gender tarazlığını saxlamaq;*

*4. Təhsilalanla qarşılıqlı münasibətdə neytral gender dilindən istifadə etmək və müəllimin özünün davranışlarına gender baxımından qiymət verməsi.*

Gender kompetensiyasının bu istiqamətlərinin reallaşdırılması yalnız məktəb daxilində deyil, cəmiyyətdə də ədalətli və inklüziv sosial mühitin yaradılmasına münbit şərait yaradır.

Dərs prosesində müəllimin gender kompetensiyaları vacib amil kimi ortaya çıxır və onun özünün cinslərarası sosial bərabərliyə, cinslərdən birinin diskriminasiyasına münasibəti ilə şərtlənir. Müəllimin gender bacarıq və kompetensiyaları onun gender haqqındakı nəzəri bilikləri ilə bərabər, həm də bu sahədə gender bacarıqları, mental dəyərlərə münasibəti hər iki cinsdən olan

təhsilalanlara eyni münasibəti ilə ölçülür. Təhsildə bərabər imkanlar prinsipi gender yanaşmasının əsasını təşkil edir və o həm oğlanlara, həm də qızlara özünü reallaşdırmaq, bərabər hüquqlara malik olmanı ifadə edir. Tədqiqatın eksperimental bazası olaraq Bakı şəhərindəki 56 və 200 nömrəli orta ümumtəhsil məktəblərində müəllimlərin gender kompetensiyalarının səviyyəsini öyrənmək məqsədi ilə tədqiqat apardıq və burada 150 nəfər müxtəlif fənləri (ədəbiyyat, tarix, coğrafiya, riyaziyyat) tədris edən müəllimlər iştirak etdilər. Onlardan 140 nəfəri qadın, 10 nəfəri isə kişi müəllimi idi. Tədqiqatın gedişində məktəblərdə kişi müəllimlərinin sayının az olması tədqiqatın keçirilməsinə müəyyən qədər təsir göstərdi. Tədqiqat zamanı nəzəri metodlardan, problemin xarakterinin müəyyənləşməsi üçün terminoloji təhlildən, müəllimlərdə gender kompetensiyasının səviyyəsini öyrənmək üçün eksperimentdən, riyazi-statistik metoddan istifadə edilmişdir.

Tədqiqatın əvvəlində müəllimlərə dövlətin gender siyasəti, təhsildə gender siyasəti, “gender” məfhumunun mahiyyəti ilə bağlı biliklərini öyrənmək üçün *“Gender haqqında nə deyə bilərsiniz?” sualı ilə müraciət etdik. Onlardan 25%-i “bəli, gender haqqında lazımi məlumat verə bilərəm”, 30%-i “gender haqqında eşitmişəm, ancaq onun mahiyyətini dəqiq izah etməyə çə-tinlik çəkirəm”, 45%-i isə “gender haqqında heç nə deyə bilmərəm”* cavabını verdilər. Müəllim-lərin cavablarında genderin bioloji müstəvidə izahına daha çox yer verildi və bu cavabların bir çoxunda öz əksini tapdı:

- *“Gender” insanın müəyyən cinsə mənsubluğunu ifadə edir (qadın, riyaziyyat müəllimi).*
- *“Gender” oğlan və qızların ayrılıqda təhsilini nəzərdə tutur və ayrı-ayrı cinslərə aid tərbiyəyə əsaslanır (kişi, ədəbiyyat müəllimi).*
- *“Gender” qadın və kişi başlanğıcının tərbiyəsidir (kişi, tarix müəllimi).*
- *“Gender” uşaqların cinsi tərbiyə aspektindən həyata hazırlanmasını nəzərdə tutur (qadın, kimya müəllimi).*

Cavablardan da aydın olur ki, respondentlərin cavabları “ənənəvi kişi” və “ənənəvi qadın” rollarına əsaslanan cinsi-rol yanaşmasını əks etdirir. Müəllimlərin, xüsusilə də sinif rəhbərlərinin tərbiyə işi ilə bağlı iş proqramlarında gender probleminə həsr edilmiş müddəalara rast gəlinmir.

“Təhsildə gender yanaşmasını necə başa düşürsünüz?” sualına da müəllimlərin cavabları müxtəlif olmuşdur:

- *Təhsildə gender yanaşması qızlarda “qadınlığın”, oğlanlarda isə “kişiliyin” tərbiyə edilməsidir.*
- *Təhsildə gender yanaşması təhsil məkanında hər iki cins üçün bərabər imkanların yaradılmasıdır.*
- *Təhsildə gender yanaşması qadınların cəmiyyətin sosial həyatına daha fəal adaptasiyasını nəzərdə tutur.*

Müəllim kontingentinin daha çox hissəsi gender stereotiplərini özündə əks etdirən patriarxal tərbiyə sisteminin yetirməsi olduğundan onların bu problemə münasibətində mental dəyərlərin güclü təsirini hiss etmək çətin deyil. Bu baxımdan müəllim kollektivində patriarxal stereotiplər qadınlara münasibətdə mühafizəkarlığı özündə müəyyən qədər qoruyub saxlayır. Sorğuya cəlb edilən müəllimlərin 53%-nin fikrinə görə, qadının əsas funksiyası yaxşı ana və həyat yoldaşı olmaqdır və burada ailə ənənələrinin rolu danılmazdır. Bu məsələdə neytral mövqedə olanlar isə 33% təşkil edir. Ailə daxilində funksiyaların bölüşdürülməsini məqbul hesab edənlər isə 14% oldu. Maraqlı haldır ki, qadın müəllimlərin ailədaxili münasibətlərdə gender probleminə yanaşmasında “özünüdiskriminasiya” mövqeyi hiss olunur ki, bunun da əsasında qadının ailə təsərrüfatının idarə edilməsində könüllü üstünlüyə meyil etməsi durur. Beləliklə də, qadın müəllimlər ailənin bütün yükünü könüllü olaraq öz üzərlərinə götürürlər.

*“Qadın kişi ilə eyni səviyyədə işləməlidirmi?”* sualına respondentlərin 38%-i *“bəli”*, 48%-i *“xeyir”*, 10%-i *“həm hə, həm də yox”*, 4%-i isə *“cavab verməyə çətinlik çəkirəm”* cavablarını vermişlər. Qadın müəllimlərin 68%-nin qənaətinə görə, qadına təhsil və karyera ailə qədər vacibdir.

*“Qadın karyera ilə evdar qadın arasında hansı seçimi etməlidir?”* – sualına cavab verən müəllimlərin 78%-i hesab edirlər ki, karyera və ya evdar xanım olmaq arasında qadın özü könüllü seçim etməlidir. 9%-i cavab verməkdə çətinlik çəkmiş, 13% respondentin fikrinə görə isə qadının ailəsi karyera ilə müqayisədə ilk yerdə durmalıdır.

*“Evli qadının işləməsinə necə baxırsınız?”* sualına cavabda müəllimlərin 18%-nin fikrinə görə, evli qadınlar işləməkdən əvvəl öz ailələri ilə

məşğul olsalar bu cəmiyyət üçün daha faydalı olar. 70% respondent isə evli qadının işləməsini onun həm maddi durumuna müsbət təsiri, həm də onun özünü şəxsiyyət kimi təsdiq etməsi baxımından əhəmiyyətli hesab etmişlər. 12% respondent isə suala cavab verməkdə çətinlik çəkmişdir. Müəllimlərin *"Qadın öz ailəsi ilə, kişi isə ictimai-faydalı əməklə məşğul olmalıdır"* fikrinə 42% "bəli", 48% isə "yox" cavabı vermişlər. Respondentlərin 10%-i isə suala cavab verməkdə çətinlik çəkmişlər. *"Qadın öz ailəsi ilə məşğul olmalı, kişi isə dövlət işində çalışmalıdır"* fikrinə münasibətdə 66% müəllim bu fikirlə razılaşmadıqlarını bildirmiş, 23% bu fikri dəstəkləmiş, 11% isə bu suala cavab verməkdə çətinlik çəkmişlər. *"Liderlər içərisində hansı cins daha yaxşı liderlik qabiliyyətinə malikdir?"* sualına cavabda 52% respondentə görə, kişilər daha yaxşı liderdirlər, 41%-ə görə isə qadınlar lider ola bilərlər. 7% respondent isə bu suala cavab verməyə çətinlik çəkiblər. 62% isə pedaqoji sahədə qadın liderlərin məqbul olduğunu qeyd etmişlər ki, bu da təhsildə qadın müəllimlərin sayca daha çox olması ilə bağlıdır.

**Nəticə.** Beləliklə demək olar ki, müəllimlərin bir çoxunun gender təsəvvürləri maskulinlik və feminliklə bağlı ənənəvi təsəvvürlərə əsaslanan stereotipləri əks etdirir. Bu da müəllimlərin genderə aid olan bilik səviyyəsinin aşağı olmasına dəlalət edir. Təhsil sahəsində gender siyasətinin hələ də lazımi səviyyədə olmaması cəmiyyətdə gender bərabərsizliyinə şərait yaradır, hər bir fərdin cinsindən asılı olaraq potensial inkişafına mane olur. Bu maneələr nəticə etibarilə ölkənin demokratik istiqamətdə inkişafını ləngidir. Bu ləngimənin qarşısını almaq üçün təhsilin bütün səviyyələrində, xüsusilə orta məktəbdə gender paradiqmasının təşviqi lazımdır. Gender dünyagörüşü müəllimlərin gender mədəniyyətinin təkmilləşdirilməsinə, cəmiyyətdə hələ də müəyyən qədər güclü olan gender stereotiplərinin aradan qaldırılmasına, müstəqil, tənqidi təfəkkürə malik, yaradıcı şəxsiyyətin formalaşdırılmasına töhfə verə bilər.

Aparılmış sorğudan belə nəticəyə gəlmək olur ki, müəllimlərin gender kompetensiyasının formalaşmasında onların gender haqqında kifayət qədər biliklərinin olmaması, onların dünyagörüşlərində gender stereotiplərinin güclü olması əsaslı rol oynayır. Eyni zamanda bu amillərə gender baxımından ailələrdə hələ də bərabərsizliyin olması və bunun da məktəblə ziddiyyət təşkil etməsini daxil etmək olar. Bu çatışmazlığın aradan qaldırılması üçün pedaqoji kadr hazırlığını həyata keçirən ali məktəblər müəllim hazırlığında gender aspektini nəzərə almalıdırlar. Deyə bilərik ki, gender kompetensiyasına malik olan müəllimlər vasitəsilə təhsildə həm oğlan, həm də qızlar üçün bərabər imkanlar yaradılmış olur, təhsilalanların daxili potensialı üzə çıxarılır və cəmiyyət tolerantlıq və ədalət prinsipi ilə yaşayır. Ümid edirik ki, gender kompetensiyasının müəllimlər tərəfindən mənimsənilməsi həm təhsilin keyfiyyətinin yaxşılaşdırılmasına, həm ailədə, həm də cəmiyyətdə gender bərabərliyinin bərqərar olmasına böyük töhfə verə bilər.

## İstifadə edilmiş ədəbiyyat

1. "Təhsil işçilərinin 2011-ci il sentyabr konfranslarının keçirilməsi haqqında" Azərbaycan Respublikası təhsil nazirinin əmri. (elektron resurs). Bakı, 2011. https://edu.gov.az/az/esas-senedler/4365

2. Болотов В.А., Сериков В.В. Компетентностная модель: от идеи к образовательной программе. Журнал "Педагогика", 2003, №10, с.8-14.

3. Болотов В.А. Отзыв на Муниципальную программу поддержки и развития новаторства в образовании. Тольятти, 1986, 195 с.

4. Воронин А.А. Основы прогнозной оценки потребности региона в специалистах по инновационной направленности. Москва, НИИВО, 2002, 79 с.

5. Гукаленко О.В. Поликультурное образование: теория и практика. Тирасполь, 2003, 275 с.

6. Иванов Д.А. Компетентности и компетентностный подход в современном образовании. Москва, 2007, 296 с.

7. Калацкая Н.Н. Задачный подход к оценке эффективности педагогической практики студентов: /дис... кан.пед. наук, Казань, 2002, 208 с.

8. Клименко Н.Ю. Социально-педагогическая компетентность специалистов социальной сферы. Журнал "Педагогика", 2003, №2, с.21-22.

9. Матушевская Г.В. Современные тенденции развития педагогических компетенций студентов – будущих учителей в вузах Франции: дис... кан. пед. наук Казань, 2000, 196 с.

10. Новиков А.М. Построение системы непрерывного образования. Москва, 2000.

11. Загайнов И.А., Блинова М.Л. О формировании профессиональной педагогической компетентности педагога (гендерный аспект). Образование и саморазвитие. 2015, №4 (46), 101-104.

E.Mollayeva

## Theoretical and practical basis of formation of gender competences in professional teacher training

**Abstract**

The article extensively explains gender competence, which is a necessary part of a teacher's pedagogical abilities, its directions, and the important role of this factor in the socialization of students and the improvement of teaching activities. The essence of the concept of "competence", the contradictions and shortcomings between old and new approaches in the training of pedagogical personnel in the world educational space, the pedagogical and psychological impact of taking into account the gender factor in the teaching process are given. The article states that in order to form gender competencies in teachers, it is important for them to deeply master the scientific and pedagogical importance of the concept of gender, and they should know that in the pedagogical process, a teacher should not only be a transmitter of knowledge, but also take care of the formation of social values in the younger generation. For this, he should be able to appropriately apply gender approaches in both communication and teaching the subject, create equal opportunities for students of both sexes, and try not to allow discrimination against any of the sexes in the teaching process. For this purpose, these components of gender competence should be instilled in young teachers in their training: they should be able to understand the pedagogical-psychological essence of gender theory, the justice and tolerance that constitute the main goal of gender, maintain gender balance during the lesson, use neutral communication, stay away from gender stereotypes, and have a deeper understanding of their own gender identity.

Э.Моллаева

## Теоретические и практические основы формирования гендерных компетенций в профессиональной подготовке учителей

**Аннотация**

В статье подробно рассматривается гендерная компетентность, являющаяся необходимой частью педагогических способностей учителя, ее направления и важная роль этого фактора в социализации учащихся и совершенствовании учебной деятельности. Приводится сущность понятия «компетентность», противоречия и недостатки старых и новых подходов к подготовке педагогических кадров в мировом образовательном пространстве, педагогическое и психологическое воздействие учета гендерного фактора в учебном процессе. В статье отмечается, что для формирования гендерной компетентности у учителей важно глубокое освоение научно-педагогического значения понятия гендера, а также понимание того, что в педагогическом процессе учитель должен быть не только передатчиком знаний, но и заботиться о формировании социальных ценностей у молодого поколения. Для этого он должен уметь адекватно применять гендерные подходы как в общении, так и в преподавании предмета, создавать равные возможности для учащихся обоих полов и стараться не допускать дискриминации по половому признаку в учебном процессе. С этой целью в процессе обучения молодых учителей следует прививать следующие компоненты гендерной компетентности: они должны понимать педагогико-психологическую сущность гендерной теории, справедливость и терпимость, составляющие главную цель гендера, поддерживать гендерный баланс во время урока, использовать нейтральную коммуникацию, избегать гендерных стереотипов и иметь более глубокое понимание собственной гендерной идентичности.